AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN
BÖYÜK PALATASINA

№ 2968/09

Hüquqlarını müdafiə etdiyim İsmayıl Rüstəm Almaniya Federativ Respublikasında hüquqlarının tapdalanması, ağır xəstə olmasına baxmayaraq məhkəmələrin onun şikayətlərinə etinasız yanaşaraq müalicəsinə icazə vermədikləri barədə şikayətlə müraciət etmişdir.

Nəzərinizə çatdırmaq istəyirəm ki, hüquqlarını müdafiə etdiyim İsmayıl Rüstəmin Almaniya Federativ Respublikasının dövlət orqanları tərəfindən 1998-ci ildən indiyə qədər hüquqları pozulur, bunun nəticəsində ağır bədən xəsarətləri almış, 1999-cu ildə onun ləyaqəti alçaldılaraq polislər tərəfindən qış ayında çılpaq soyundurularaq döyülmüşdür və bunun nəticəsində vərəm və sətəlcəm xəstəliyinə tutulmuşdur.Bundan əlavə polislər tərəfindən döyüləndə aldığı ağır zərbələrin nəticəsində 1999-cu ildə epilepsiyalar keçirmişdir. Lakin AFR-nın hakim dairələri onun xəstəliyini gizlətməyə çalışmış, AFR-da belə bir qanun olmamasına baxmayaraq 2000-ci ildə onun həkimə müraciət etməsinə qadağalar qoyulmuşdur.

Bununla əlaqədar olaraq İsmayıl Rüstəm AFR-nın demək olar ki, bütün məhkəmələrinə müraciət etmişdir. Lakin AFR-nın məhkəmələri insan hüquqlarına zidd olan qərarlar vermişlər ki, bunun da nəticəsində onun səhhəti daha da pisləşmişdir və 2003-cü ildə ən dəhşətli xəstəliyə - infarkta məruz qalmışdır. İ.Rüstəmin hüquqi savadı yoxdur, ağır, sağalmaz xəstəliyə düçar olmuşdur, maddi cəhətdən çox çətinlik çəkir. AFR-nın məhkəmələrinin qeyri-obyektiv mövqeyləri nəticəsində onun səhhəti daha da ağırlaşmışdır, o hazırda ölümlə-həyat arasında mübarizə aparır, əgər AFR-da İ.Rüstəmə qarşı belə münasibət davam edərsə, şübhəsiz ki, bu mübarizədə ölüm qalib gələcəkdir.

Bütün bunlar az imiş kimi, AFR-nin Amtsqericht adlanan məhkəməsinin (akt Nr : 50 XV!! 7034/09) 15.12.2009-cu il tarixli qanuna zidd qərarı ilə İ.Rüstəmə PARANOİD diaqnozu qoyulmuşddur. Halbuki, İ.Rüstəm 2006-cı ildən bu günə qədər 1 dəfə də olsa psixiatra müraciət etməmişdir və onda bu xəstəliyin əlamətləri yoxdur. Paranoid diaqnozu həkimlər tərəfindən 3 ay müayinə etdikdən sonra qoyula bilər, lakin alman psixiatr eksperti cəmi 1 saat İ.Rüstəmin evində olmuşdur və paranoid diaqnozunu ona qoymuşdur. İ.Rüstəm ona qoyulmuş bu diaqnozla razılaşmamış və etiraz yazmışdır. Məhz bi səbəbdən də 27.11.2009-cu ildə məhkəmə qurulmuş, İ.Rüstəmə paranoid diaqnozu qoyan həkim özü də etiraf etmişdir ki, 1 saatın içərisində bu bu diaqnozun qoyulması mümkün deyildir, bu sadəcə olaraq onun şəxsi fikri olduğundan qoyulmuş paranoid diaqnozu 100% sayıla bilməz. Qeyd edim ki, məhkəmənin 27.11.2009-cu il trixli qərarında həkimin bu sözləri öz əksini tapmışdır.

Məhkəmənin 15.12.2009-cu il tarixli qərarı ilə İ.Rüstəm guya paranoid diaqnozu ilə xəstə olduğu üçün öz hüquqlarını müdafiə edə bilməməsi göstərilmiş və ona zorla 05.05.2009-cu il tarixdən 16.10.2009-cu il tarixədək 2 nəfər xəstə baxıcısı – BETRENER təyin edilmişdir. Lakin həmin betrenerlər İ.Rüstəmə yardımçı deyil, əksinə tam onun əleyhinə çalışan insanlardır. Həmin 2 alman xəstə

baxıcıları 5 ay ərzində İ.Rüstəmin minlərlə vacib problemlərini həll etmək əvəzinə, əksinə 1999-cu ildə polislərin onu qış aylarında soyundurаraq çılpaq vəziyyətdə döydüklərinə görə davamı 4-cü üst məhkəmə sayılan Bundesqerichthofdan (akt Nr : 2Ars 346/09) geri götürmüşlər.Yəni AFR məhkəməsi qərəzli olaraq İ.Rüstəmi anlaqsız hesab edərək onun öz hüquqlarının özünün müdafiə etməsi hüququnu əlindən almışdır. Ona görə də İ.Rüstəm 07.12.2009-cu ildə məhkəməyə etiraz yazaraq xəstə baxıcılarının bu hərəkətini qanuna zidd olduğunu göstərmiş və işin yenidən təzələnməsini tələb etmişdir. Çünki, xəstə baxıcıları səlahiyyətlərini aşaraq onlara həvalə edilmiş xəstənin hüquqlarını kobud surətdə pozmuşlar. Eyni zamanda, Avropa İnsan Hüquqları Məhkəməsinin (akt Nr : 746/04) may 2006-cı il tarixdə verdiyi qərarında göstərilən (dava ilk öncə Almaniyanın bütün instansiyalarından keçdikdən sonra, Avropa məhkəməsində baxıla bilər) sözlərinin AFR-da icrasının qarşısı alınmış olub.

İsmayıl Rüstəmin hüquqlarının kobud surətdə pozulmasının təsdiqi ilə sənədləri www.rustemazeri.com saytına girərək, 9 COURT Germani açmalı və orada Dokument 09 açıb aydın görmək olar. Həmin sənədlərə nəzər yetirilsə, İ.Rüstəmin hüquqlarının necə kobud surətdə pozulması aşkar olunar.

İ.Rüstəm bu yaxınlarda Türkiyə dövlətindən keçməklə Azərbaycana gəlmişdir və geri qayıtmışdır. Ruhi xəstə olan bir şəxs bu yolu gedib qayıda bilərdimi?

Polis əməkdaşlarının İ.Rüstəmi döyməsi barədə mübahisə açmağa ona imkan verilməmişdir. 07.01.2004-cü ildə Avropa İnsan Hüquqları məhkəməsinə müraciət etməyə müvəffəq olmuşdur, lakin Avropa İnsan Hüquqları məhkəməsi İ.Rüstəmin şikayətininə 2 ildən sonra reaksiya vermiş və ona əvvəlki instansiyalara müraciət etmək tövsiyyə edilmişdir. Avropa İnsan Hüquqları məhkəməsinin bu qərarı da qanunsuzdur. Belə ki, AFR məhkəmələri qərəzli olaraq İ.Rüstəmin şikayətlərimə baxmırlar, 2009-cu ildən isə onu paranoid xəstəsi elan edərək bütün hüquqlarını əlindən almışlar.

İ.Rüstəmin daha bir hüququ pozularaq, onun Berlin şəhərindən kənarda yaşaması qadağan edilmişdir

Bundan əlavə, 2000-ci il qərarı iləİ.Rüstəmin vərəm və sətəlcəm xəstəliyinə düçar olduğum öz əksini tapmışdır, l göstərilmişdir ki, o artıq elə vəziyyətdədir ki, artıq son nəfəsidir, lakin elə həmin qərarla da onun müalicə üçün həkimə müraciət etməsinə icazə verilməmişdir.

2001-ci ildə İsmayıl Rüstəm məhkəməyə müraciət edərək vərəm xəstəliyinin müalicəsinə icazə verilməsini xahiş etmişdir. Lakin ona digər həkimlərə deyil, yalnız psixiatra, həm də cəmi 1 dəfə müraciət etməyə icazə verilmişdir, bu şərtlə ki, onun öz ölkəsində həmin xəstəliyin çarəsi olmasın, yalnız bu zaman onu müalicə etməyə icazə veriləcəkdir. Halbuki, psixiatr 3 ay müayinə etdikdən sonra diaqnoz verə bilər. Göründüyü kimi İ.Rüstəmə ruhi xəstə diaqnozu

zorla qoyulur.Rüstəmə qarşı təzyiqlər o dərəcəyə çatmışdır ki, İ.Rüstəm Strasburqdan qayıtdıqdan sonra onu müalicə edə həkimi tapa bilməmişdir, həmin həkimin işlədiyi poliklinika bağlanmışdır, həkim isə 6-7 ay ərzində yoxdur. Səbəbi isə odur ki, 01.01.2008-ci ilə qədər İ.Rüstəm EJC-dən müalicə üçün müavinət verilmişdir, 01.01.2008-ci ildən həmin müavinət qeyri-qanuni olaraq dayandırılmışdır. Sosial təşkilatlardan Arayış alınmışdır ki, onun müalicəsi üçün vitaminlər qrupuna ehtiyac vardır. Lakin bu arayış mübahisələnmişdir, məhkəmə 2008-ci ilin sentyabr ayında işin baxılmasını dayandırmışdır və ona tapşırmışdır ki, həmin arayışı verən həkimi tapım. Lakin İ.Rüstəm həmin həkimi tapa bilmədiyi üçün iş baxılmamış saxlanıldı, hesab edirəm ki, AFR-nın bu məhkəməsi də mübahisənin həll edilməsinə qərəzli yanaşmışdır, arayışı verən həkimin məhkəmə iclasına dəvət edilməsini təşkil etməmişdir.

Bundan başqa müxtəlif təşkilatlar Rüstəmə qarşı təzyiqlər göstərirlər, mənzilinin işığını kəsirlər, telefonunu kəsirlər və s. Dəfələrlə polis işçiləri İ.Rüstəmin qonşularımın evinə gələrək kompramantlar toplayırlar, onun əleyhimə təbliğatlar aparırlar, onun kimlərlə ünsiyyətdə olduğu barədə məlumatlar toplayırlar, onun haqqımda yalan məlumatlat yayırlar, onun şəxsiyyətimi alçaldaraq qonşulara deyirlər ki, o dəlidir, sizə hücum etsə bizə məlumat verin. Məhkəmələr isə bu pozuntunu aradan qaldırmaq əvəzinə, həqiqətin üzə çıxarılmasına əngəl törədirlər. Baxmayaraq ki, AFR-də olduğu 11 il ərzində 16 adlı xəstəliyə düçar olmuşdur və onun xəstəlikləri təsdiq edilmişdir, lakin xəstəlik pasportunu hələ də ala bilmir.

Bütün bu göstərdiklərimə əsasən Sizdən xahiş edirəm ki, İsmayıl Rüstəmin AFR-da hüquqlarının kobud şəkildə pozulmasını nəzərə alaraq öz səlahiyyətlərinizdən istifadə edərək onun şikayətlərinin obyektiv araşdırılaraq qanuni qərarlar qəbul edilməsini təmin edəsininz.

Imza: Abdullayeva Tamilla Ələkbər qızı

Bakı şəhəri, 13 saylı Hüquq Məsləhətxanasının vəkili